# Qarabağın gülüstana çevrilməsi hər birimizdə qürur hissi doğurur

**Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən il 44 günlük Vətən müharibəsində müzəffər Silahlı Qüvvələrimiz tərəfindən parlaq qələbə əldə edildi. Bu möhtəşəm uğurdan dərhal sonra doğma Qarabağda bərpa-quruculuq layihələrinin reallaşdırılmasına başlanıldı. Məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması üçün tikinti işləri geniş vüsət aldı.**



Bölgədə yolların salınması xüsusi diqqətdə saxlanıldı. Çünki abadlıq, rifah, məskunlaşma, ümumiyyətlə, yoldan başlanır. Elə bu məqama önəm verilməsinin nəticəsidir ki, indiyədək Qarabağda magistral yolların, dəmiryol xəttinin çəkilişi sürətlə aparılır. Gələcəkdə üç aeroportun istifadəyə verilməsi də yol-nəqliyyat məsələsinə xüsusi əhəmiyyət verilməsinin bariz ifadəsidir.

Ağdamın yenidən qurulması planı da təsdiqlənib və qəbul edilib. Bu böyük şəhərdə sənaye parkının, Zəfər muzeyinin və İşğal muzeyinin yaradılması, habelə Ağdamla Bərdəni birləşdirən avtomobil yolunun və dəmiryolu xəttinin yenidən qurulması planlaşdırılıb.

Bərpa işləri çərçivəsində artıq azad edilmiş yaşayış məntəqələrinin 169-da 13 mindən çox binada və 1500 kilometrdən çox yolda inventarlaşdırma işləri başa çatıb. Yeri gəlmişkən, 409 yaşayış məntəqəsini isə erməni işğalçıları tamamilə dağıdaraq yerlə-yeksan ediblər.

Burada bir məqama da xüsusi toxunmaq istərdim. Belə ki, Qarabağda aqrar sektoru inkişaf etdirmək, kənd təsərrüfatında yüksək göstəricilər əldə etmək qarşıya mühüm vəzifə kimi qoyulub. Elə buna görə də hazırda azad edilmiş bütün torpaqların su mənbələrinin xəritəsi hazırlanır. Bizim bütün su ehtiyatlarımız, çaylarımız, göllərimiz, su anbarlarımız – bu sərvətimiz indi bizim əlimizdədir. Bu su mənbələrindən səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnələrinin bərpası məqsədilə artıq vəsait də ayrılıb, müvafiq göstərişlər verilib və geniş proqram icra edilməyə başlanılıb.

Yeri gəlmişkən, qeydlərimin bu məqamında Prezident İlham Əliyev iyunun 15-də respublikamızda səfərdə olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğanı Füzuli rayonunda qarşılayarkən, dövlətimizin başçısı qardaş ölkənin rəhbərinə bu bölgədə reallaşdırılan bərpa-quruculuq layihələri barədə məlumat verdiyini də xatırlatmaq istərdim.

Dövlətimizin başçısı qardaş ölkənin Prezidentinə işğaldan azad edilən yaşayış məntəqələrimizdə ermənilər tərəfindən dağıdılan infrastrukturun bərpası istiqamətdə proqramlar hazırlandığını, Şuşa, Kəlbəcər, Laçın və digər rayonlarımızda dağıdılan məscidlərin, tarixi abidələrin, məktəblərin yenidən bərpa olunacağını, Şuşa şəhərinin işğaldan öncə olduğu kimi, Azərbaycanın yenidən əsas turizm mərkəzinə çevriləcəyini, yağı tapdağından qurtulan torpaqlarda kənd təsərrüfatının inkişaf etdiriləcəyi haqqında tədbirlər planı üzərində işlənildiyini bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, işğalçı hesab edirdi ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt bura qayıtmayacaq. O məqsədlə də Qarabağın, necə deyərlər, altını üstünə çevirib. Amma düşmən yanılıb. Biz doğma Qarabağımıza qayıtmışıq. Tarixi yurd yerlərimizi, şəhər və kəndlərimizi yenidən qurur, abadlaşdırırıq.

Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan vətəndaşları yenə də bu tarixi torpaqlarımızda yaşayacaq, qurub-yaradacaqlar. Amma bugünkü tarix heç vaxt unudulmayacaq. Bu dağılmış, yandırılmış evlər, viran qoyulmuş kənd və şəhərlər erməni vəhşiliyinin canlı şahidləridir. Bu evlərdə, bu şəhərlərdə yaşayacaq insanlarımızın Vətən sevgisi ilə indi hər qarış torpağımız canlanır, yurd yerlərimiz gülüstana çevirilir.

***Cəlil BAXŞIYEV,***
***YAP Lerik rayon təşkilatının sədri***